**UOT 791.43**

**Nəzrin Vüqar qızı Məmmədli**
**Azərbaycan Dövlət Mədəniyyət**
**və İncəsənət Universiteti**
**magistrant**
**E-mail: nezrin7509@gmail.com**

# 1945-Cİ İLDƏ EKRANLAŞDIRILMIŞ "ARŞIN MAL ALAN" FİLMİNİN DRAMATURGİYASININ ƏSAS XÜSUSİYYƏTLƏRİ

**Xülasə:** "Arşın mal alan" məhəbbət, sosial uyğunluq və şəxsi xoşbəxtlik axtarışlarını ön plana çıxarmaqla müasir cəmiyyətdə öz aktuallığını qoruyub saxlayır. Onun köhnəlmiş ictimai normaları tənqid etməsi və fərdi seçimin təntənəsi bu mövzuların aktual qaldığı bir dünyada rezonans yaratmaqda davam edir. Filmdə həqiqi əlaqə axtarışında ənənəvi gözləntilərə meydan oxuyan qəhrəmanın təsviri ictimai təzyiqlərin və şəxsi istəklərin mürəkkəbliyi ilə öz yollarını idarə edən müasir tamaşaçılardan danışır.

**Açar sözlər: "**Arşın mal alan", musiqi, film, operetta Kinonun səsli dövrünə keçid etməsi, ölkədə baş verən tarixi dəyişiklik hadisələri 1916-cı ildə çəkilən və uğursuz alınan "Arşın mal alan"ın taleyinə də öz təsirini müəyyən dərəcədə göstərir. 1945-ci ildə Bakı Kinostudiyasında istehsalı həyata keçirilən filmə kinorejissor Rza Təhmasib Nikolay Leşşenko ilə birlikdə eyni adlı operetta əsasında quruluş verib. Filmdə Əsgər rolunu Rəşid Behbudov, Gülçöhrəni Leyla Bədirbəyli, Soltan bəyi Ələkbər Hüseynzadə, Cahan xalanı Münəvvər Kələntərli, Vəlini Lütfəli Abdullayev, Tellini Fatma Mehrəliyeva, Asyanı Rəhilə Mustafayeva, Məşədi İbadı Mirzəağa Əliyev canlandırır.

1945-ci ildə çəkilən "Arşın mal alan"ın sujet xətti operettadakı ilə demək olar ki, eynilik təşkil etməkdədir. Ssenarist Sabit Rəhman filmdə köhnə adət-ənənələri, əsl sevgi necə olmalıdır şüarı əsasında qəhrəmanın başına gələnləri nəql etməklə, məcburi məhəbbətə yox deyərək, qarşılıqlı sevginin üstünlüyü mövzusuna da toxunmuşdur. "Arşın mal alan"da müəllif bir növ köhnə tacirlərin dünyasını sanki pərdə arxasında gizlətməklə müsbət qəhrəmanların üzə çıxarılmasını təmin etdi. Film ümumilikdə, cəmiyyətdə və ailədə yaranan daxili münasibətlərin tənqidinə yönəlməklə, qadın hüquqlarının qorunub saxlanılması, onların qorunması naminə mübarizənin göstərilməsi, insanın mənəvi azadlığının bərqərar olması istiqamətini əsas götürmüşdür. "Arşın mal alan" təbəqə ayırımı etmədən müxtəlif mərtəbənin insanlarını və onların öz daxilində cəmləşdirdiyi özünəməxsus müəyyən xarakterləri açır. Baş qəhrəmanlarımızdan olan Əsgər və Gülçöhrənin qarşıya qoyduqları məqsəd əslində saf, təmiz və onlar arasında yaranan səmimi sevgi idi. Digər qəhrəmanlardan olan Sultan bəy və Cahan xala bir növ köhnə dövrün nümayəndəsi kimi çıxış edərək o

dövrə xas olan xüsusiyyətləri özündə ehtiva edir. Qulluqçu rolunu canlandıran Telli və Vəlidən də söz açmaq olar ki, onlar da bir növ daha çox demokratik dünyanın təmsilçisi kimi çıxış edirlər.

"Arşın mal alan"ın bu məşhur obrazları sözügedən dövrün əsl üzünü görmüş, həmin cəmiyyətin içərisində yaşayaraq həmin zamana aid olan adət-ənənələri, o dövrün özünəxas üslubunu götürərək əsl realist yanaşmanı aşılamağa xidmət etmişdilər. Nəticədə bu personajlar əvvəlki dövrün bütün mənsub vəziyyətini öz reallığı ilə ortaya qoymağa çalışan real insanlardan təşkil olunmuşdur. "Arşın mal alan"ın əsas daşıyıcılarından biri olan musiqi isə bədii ifadənin əsas özəyini təşkil etməklə, mürəkkəb və olduqca geniş funksiyaları daşımışdır. Musiqinin əhatə dairəsinin kifayət qədər geniş diapazonda birləşməsi bu filmdə obrazların məzmun dərinliyinin açılmasına birbaşa xidmət göstərmişdir. Bununla yanaşı filmdə nümayişi reallaşan ariyaların əsas göstərici məqsədi ondan ibarət idi ki, filmdəki baş qəhrəmanların əsl göstərmək istədikləri obrazları və onların ayrı-ayrılıqda fərdi xarakteristikaları tam şəkildə açılsın [ 5, səh.7].

Yaradıcılığının nə dərəcədə zəngin olduğu hər kəsə məlum olan Üzeyir Hacıbəylinin əsas hədəfinin qadınlardan təşkil olunması "Arşın mal alan"da da özünü büruzə verirdi. O, müxtəlif qadın tiplərinə müraciət edərək onları işıqlandırmağa nail olmuşdur. Öz daxili xarakterlərinin müxtəlif bədii ifadələrlə zənginləşdirilərək təqdim olunan Gülçöhrə, Leyla, Asya, Nigar və digərləri bunun göstəricisidir. Hansı ki, bizim üstündən uzun illər keçsə də, bu gün də dillərimizin əzbəri olan məşhur Gülçöhrəmiz sevgini və azadlığı hər zaman hər şeydən daha üstün görməyə çalışır, biz bunu atası Sultan bəyin onun üzərində olan hökmü və iradəsindən qorxub çəkinmədən öz sevgi hisslərini üzə çıxararaq bir arşın malçı olan Əsgəri sevməsindən aydın görə bilirik. Filmdə bərqərar olan hadisələr əslində iki qəhrəman arasında olan bu hissin bir sevgidən daha artıq, daha dərin olduğunu onların hərəkətlərindən, baxışlarından eyni zamanda müşayiət etdikləri musiqi nümunələrindən də aydın şəkildə görməyə şərait yaradır. Atası Sultan bəyin maddiyyatın xoşbəxtlik gətirəcəyindən dəm vurması onun fikirlərindən də açıq-aydın şəkildə sezilməkdədir. Filmdə məhəbbətin, üstəlik də bir qadın tərəfindən bu qədər azad şəkildə açılmasına müvəffəq olması onu təkcə Azərbaycanda deyil, digər dünya ölkələrində də sevdirən əsas səbəblərdən olmuşdur. Filmə rəng qatan əsas məsələ sözsüz ki, hadisələrin musiqi ilə müşayiət olunmasından da ibarətdir. Hələ baş qəhrəman Əsgərin dilindən səslənən ölməz şairimiz Füzulinin qəzəlindən götürülmüş həmin misralar onun daxili aləmini açmağa köməklik göstərmişdir. Digər baş qəhrəmanı canlandıran Gülçöhrənin səsləndirdiyi ariyaların kədər, intizar, nisgil dolu olması onun həyatının və əslində ürəyindəki sözlərin göstəricisidir. Sözsüz ki, filmin əsas daşıyıcıları Əsgər və Gülçöhrədir, lakin filmdə yer alan digər personajlar da öz daşıdığı xarakterləri ilə ölkəmizə xas olan adətlərin daşıyıcısı kimi çıxış etmişlər.

"Arşın mal alan"ı həqiqətən də sənət əsəri edən təkcə onun musiqi nümayişi ilə reallaşması əsasında ortaya çıxmasında deyil, həmçinin özündə birləşdirdiyi dramatik keyfiyyətlərin də işıqlandırılmasındadır. Burada qəhrəmanlar bir-birini tamamlamaqla

yanaşı, onların həyat tərzləri, hərəkətləri, davranış xəttləri, bir-birinə olan baxış bucaqları xüsusi bir məntiq xətti ilə bağlanır ki, bu da əslində filmin realizmə əsaslanmasından xəbər verir. “Arşın mal alan”ın personajları demək olar ki, bir istiqamətdə yeniliyin əldə olunması, onun nümayişi və aşılanması istiqamətində çalışırlar və bunu əldə etmək üçün onlar bilə-bilə mövcud olan mütərəqqi meylləri qəbul etməkdən çəkinmirlər. Hansı ki, burada Əsgərin hər bir hərəkəti onun yüksək əxlaqi göstəricilərinin təzahürüdür. Nə qədər azadlıq və qadın hüquqlarının qorunmasına çalışılsa da, filmdə bu fikirlərin təkzibçisi kimi çıxış edənlər də var. Qızını məcburi şəkildə evləndirmək istəyən ata obrazını canlandıran Sultan bəy bunun nümunəsidir. Aralarındakı sevginin yaşamasını hər şeydən çox istəyən Əsgər və Gülçöhrə bu məhəbbətin yaşaması naminə böyük iradə göstərirlər. Vəli və Telli xarakterlərinin də yeniliyə qarşı can atmamaları hələ də yeniliyin rahat şəkildə hamı tərəfindən qəbul edilməməsindən xəbər verir.

“Arşın mal alan” filminin 1945-ci il variantının birinci hissəsi Əsgərin ariyası ilə açılır. Hansı ki, həmin ariya Füzulinin qəzəli əsasında qəhrəmanın daxili nisgilinin, kədərinin, bununla yanaşı, həyəcanın ifadəsində köməklik rolunu oynayır. İkinci pərdədə yaranmış ariyalar bir növ baş qəhrəmanlar Əsgər və Gülçöhrənin məhəbbət dialoqlarını təşkil edəcəkdir ki, bu da onların bir-birlərinə söyləmək istədikləri fikir və düşüncüləri açacaqdır. Qeyd etmək lazımdır ki, ikinci pərdədə söylənən ariyalar daha çox nikbin, sevinc hissi ilə doludur. Musiqi filmdə təkcə baş qəhrəmanların deyil, eyni zamanda digər personajların da həyat tərzlərinin, xarakterlərinin və mövcud vəziyyətlərinin açılmasında birbaşa iştirak edir.

Sultan bəyə gəldikdə isə, onun film boyu nümayiş etdirdiyi bütün özəllikləri, söylədiyi fikir və mülahizlərdən tutmuş, hər bir hərəkəti onun qarabağlı olduğunu sübuta yetirən əsas vasitələr kimi çıxış edir. Onun daxili düşüncələri o dərəcədə formalaşıb ki, o, ziyalı təbəqənin nümayəndələrinə sevgi göstərmək belə istəmir, hansı ki həkimlərindən tutmuş, müəllimlərə, mühəndislərə rəğbət anlayışı qətiyyən hiss etmir. O, öz aləmində bu cür insanların öz bilik və bacarıqlarına görə özlərini yüksək təbəqənin insanı yerində görsələr də, əslində heç də elə olmadığını düşünərək onları alt təbəqənin nümayəndələri sırasında görür və daima onlarla ünsiyyətdən qaçdığı müşahidə olunur. Ziyalı şəxslərin günlük rutinindən fərqli olaraq, Sultan bəy öz vaxtını Mirzə Hüseynin iş yeri olan qəssabxanasında tacirlərlə keçirməyə həsr edir.

“Arşın mal alan” filminin digər personajlarından olan Asya və Gülçöhrə dövrün qadın hüquqlarının onların əllərindən alındığının bariz nümunələri kimi çıxış edirlər. Onların həyatları dövrün tələb etdiyi çarşabların qayda-qanunları altında keçir, belə ki, öz daxmalarının dörd divarı içində həyatlarını sürdüklərindən onlar hətta sevgi görməkdən də məhrum olmuşdular. Heç bir savad almağa şəraitləri yaranmayan Asya və Gülçöhrə bu savadsızlıq içində yaşayıb-yaratmağa bir növ məcburdurlar.

Bütün bu sadalanan səbəblər onların öz düşüncə və istəklərinə dair şəxsi həzlərinin, istəklərinin, eyni zamanda zövqlərinin formalaşasına da maneə törədir. Sanki evlənmək onların başlıca həyat tərzinə çevrilir. Keçmiş dövrün ağır sınaqları onların yaşadığı dövrə təsadüf edir, lakin onların qarşılarında dayanan tək sual

həyatlarını paylaşacaqları şəxsin kim olacağından ibarət olmaqdan başqa birşey deyildi. Onların bütün maraqları da, istəkləri də bu sualda cəmləşirdi. Dövrün yaratdığı qanun bir cümlə ilə ifadə olunsa idi, bu da yəqin ki, bəylərin hökmranlığından qaynaqlanan nəticələrdən ibarət olardı. Bu səbəblər xanımların hüquqlarını əllərindən alsa da, Gülçöhrə öz gələcək yoldaşını əvvəlcədən görmək istəyi nümayiş etdirməklə bir növ "dövr nəyi tələb edirsə etsin, sən də öz istəyini dilə gətirməyi bacarmalısan" mesajını ötürməkdən qaçınmır. Bunun əksini yaşadan Telli və Asya isə öz istəklərinin uğrunda çırpınmaq yerinə həyatın onlara nə bəxş edəcəyini gözləməklə işi daima şansın öhdəsinə buraxırlar.

"Arşın mal alan"da fikir, düşüncə, ideya qarşılaşdırılması məsələsi filmin başlıca əlamətini təşkil edir. Belə ki, burada Sultan bəy və Cahan xalqının özündə ehtiva etdiyi düşüncə tərzləri ilə, Əsgər və digərlərinin formalaşdırdığı ideyalar bir-biri ilə qarşılaşdırılır, nəticədə müəllif özünəxas düşüncələri ortaya çıxarmağa müvəffəq olur.

"Arşın mal alan" sadəcə film deyil; musiqisi, rəqsi və sosial adətləri ilə əhatə olunmuş Azərbaycan mədəniyyətinin canlı təntənəsidir. Film bir növ tamaşaçıları mühüm ictimai dəyişikliklər dövründə Azərbaycan həyatının zəngin sferası ilə tanış edir. Film toyları, bazarları və gündəlik həyatı təsvir etməklə Azərbaycan mədəniyyətini müəyyən edən adət və ənənələrə orijinal baxış təqdim edir. Orijinal təsvir mədəni irsin qorunmasına kömək edir, Azərbaycan adət-ənənələrinin nüanslarının çatdırılmasını və yadda saxlanmasını təmin edir. Üstəlik, filmin təsiri onun mədəni təmsilindən kənara çıxaraq, Azərbaycan milli kimliyinin formalaşmasında mühüm rol oynamışdır. "Arşın mal alan" Azərbaycan musiqisinin və adət-ənənələrinin gözəlliyini və dərinliyini vurğulamaqla tamaşaçıları arasında qürur hissi və mədəni şüurun yenilənməsinə töhfə verib. Sovet İttifaqının homogenləşdirici təsiri ilə yadda qalan bir dövrdə film Azərbaycan mədəniyyətinin davamlı ruhunun və bənzərsizliyinin sübutu kimi çıxış edərək, onun xalqında birlik və özünəməxsusluq hissini aşıladı [5, səh. 24].

Operettanın kino dilinə çevrilməsi prosesi nəticəsində sadəcə ifaları qeyd etmək əvəzinə, burada filmin süjetini inkişaf etdirmək, xarakter motivlərini üzə çıxarmaq və əsas məqamların emosional rezonansını artırmaq üçün mahnılardan istifadə edərək, musiqini povestə inteqrasiya etmişdilər. Operettanın musiqi elementlərinə bu innovativ yanaşma filmin musiqi kinosunun təkamülünə verdiyi töhfəni nümayiş etdirir, gələcək adaptasiyalar üçün şərait yaradır.

## Ədəbiyyat siyahısı:

1. Hacıbəyov Ü.Ə. "Leyli və Məcnun"dan "Koroğlu"ya qədər. Əsərləri, II cild. 277s.
2. Hacıbəyov Ü. Ensiklopediya. B.: Azərbaycan, 1996. 462 s.
3. Hacıbəyov Ü.Ə. Nəşrlərdə kənara qoyulmuş, ixtisar və "redaktə" edilmiş əsərləri. B.: Elm, 2010, 236 s.
4. Kazımzadə A. Üzeyir Hacıbəyov və kino. B.: Nağıl evi, 2005, 416 s.
5. Kazımzadə A. Məşhur "Arşın mal alan" operettasının ekran həyatı. Azərbaycan. -2014. -19 sentyabr
6. http://konservatoriya.az/?p=1930

**Назрин Вугар Мамедли**

## ОСНОВНЫЕ ХАРАКТЕРИСТИКИ ДРАМАТУРГИИ ФИЛЬМА «АРШИН МАЛ АЛАН» (1945-го года)

**Резюме:** Фильм «Аршин Мал Алан» сохраняет свою актуальность до сих пор, выдвигая на первый план любовь, социальное соответствие и личное счастье. Критика устаревших социальных норм и торжество личного выбора продолжает находить отклик в мире, где эти темы актуальны и сейчас. Изображение в фильме героя, бросающего вызов устаревшим традициям в поисках истинной любви, обращается к современной аудитории, преодолевая трудности, социального давления.

**Ключевые слова:** «Аршин мал алан», музыка, фильм, оперетта.

**Nazrın Vugar Mammadlı**

## THE MAIN CHARACTERISTICS OF THE DRAMATURGY OF THE MOVIE “ARSHIN MAL ALAN” (1945 RELEASED)

**Summary**: “Arshin Mal Alan” remains relevant in modern society by emphasizing the search for love, social conformity and personal happiness. His critique of outdated social norms and the glorification of individual choice continues to resonate in a world where these themes are relevant. The film's depiction of a hero defying conventional expectations in search of true connection speaks to modern audiences navigating the complexities of social pressures and personal desires.

**Keywords:** “Arshin mal alan”, music, movie, operetta.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11.06.2024**